# Qocaman elm məbədi

**2019-cu il yaddaşımızda "İslahatlar ili" kimi qaldı. "Doing Business-2019" hesabatına əsasən Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi sırasında yer aldı. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, yeni mərhələyə qədəm qoymuşdur. Bu gün Azərbaycanın adı inkişaf etmiş dövlətlərlə bir sırada yer almışdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü bunun bariz nümunəsidir.**

Ölkə başçısı bütün sahələrdə olduğu kimi, milli təhsilimizin tərəqqəsinə də hər zaman qayğı göstərmişdir. Bunun nəticəsi olaraq 2019-cu ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 2.3 milyarda çatdırılmışdır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilmiş, nəticədə 1 milyondan çox şagird Avropa standartlarına uyğun olan məktəblərdə təhsil almağa müvəffəq olmuşlar. Böyük fərəhlə qeyd etməyi də vacib sanıram ki, təhsil sahəsindəki yeniliklər ölkənin ən qocaman elm məbədgahı olan Bakı Dövlət Universitetinin həyatında da parlaq şəkildə təzahür etmişdir. Ötən il doğma universitetimizin 100 yaşını böyük bayram kimi qeyd etdik.

Universitetin 100 illiyi "Qara Dəniz Universitetləri" şəbəkəsində, Parisdə UNESCO-nun Baş Qərargahında, Vyanada, Moskvada, Azərbaycanın bütün universitetlərində təntənə ilə qeyd edildi. 26 noyabr tarixində Bakı Konqress Mərkəzində ölkə başçısının iştirakı ilə möhtəşəm yubiley tədbiri keçirildi. Xatırladaq ki, Bakı Dövlət Universitetinin əməkdaşları və tələbələri 9 ay ərzində Sivas Cümhuriyyət Universitetində, İranda beynəlxalq elmi festivalda, Oksfordda, ERASMUS Beynəlxalq Akademik Araşdırmalar Simpoziumunda, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda, İsveçdə MAGNUS, Budapeşt, Vyana şəhərlərində İBS Beynəlxalq Biznes məktəbinin təlimlərində, Yaponiyada səfərdə oldular. Ölkəmizi, eləcə də şöhrətli Universitetimizi layiqincə təmsil etdilər.

Rektor Elçin Babayevin gəlişindən sonra universitetdə "İDEC" (Narkotiklə mübarizə), "Springer Nature Author Workshop", "Kəpənək effekti", "Breaking News!", "Clarivate Analytics" təlim və treninqlər keçirilməyə başlandı. YARAT müasir incəsənət məkanının təşkil etdiyi seminarlar isə əksər tələbələrin, o cümlədən mənim də böyük marağıma səbəb olmuşdu.

Bakalavr təhsilimi tamamladıqdan sonra magistr təhsilimi xarici dövlətlərin birində almağı düşünürdüm. Ona görə də BDU-nun xarici universitetlərlə əlaqələrini sıx izləyirdim. Fransanın "Lion-2", Almaniyanın "Berlin Humboldt", Braziliyanın "Rio-de-Janeyro", Türkiyənin "Sivas Cümhuriyyət Universiteti" və s. universitetlərlə bağlanmış müqavilələr (Lion-2 ilə ikili diplom razılığı əldə olunub) qısa müddətdə böyük əlaqələr deməkdir.

Elçin müəllimin bütün fakültələrlə müntəzəm görüşlər təşkil etməsi, yaradıcı gəncləri diqqətdə saxlaması onu tələbələrə sevdirən əsas xüsusiyyətidir. Mən bir gün ərzində Elçin Babayevlə Cocuq Mərcanlı səfərində oldum və tələbələrin onun xarakterində müşahidə etdikləri səmimiyyətin özümdə canlı şahidi oldum. Hər zaman problemlərimizin həllində bizə kömək edən və hər birimizi öz övladı kimi qorumağa çalışan rektorumuza gələcək fəaliyyətində uğurlar arzu edirəm...

Böyük fərəh hissilə qeyd etmək istəyirəm ki, universitet həyatımızda əhəmiyyətli rolu olan dəyərli insanlardan biri də Bakı Dövlət Universitetinin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əlis müəllimdir. Tələbə Həmkarlar İttifaqı Komitəsində sosial məsələlər üzrə müavin olduğum üçün bütün layihələrimiz, tədbirlərimiz, seminarlarımız Əliş müəllimin rəhbərliyi altında həyata keçirilir. Artıq 3 aya yaxındır ki, icra etdiyim vəzifəmdə bəzən gün ərzində onu dəfələrlə narahat etsəm də, sənədlərdə və təqdimatlarda müəyyən səhvlərə yol versəm də, Əliş müəllim hər zaman məni səbirlə və diqqətlə dinləmiş, tələbələrdən öz köməyini əsirgəməmişdir.

Universitetimizdə hər zaman öz işgüzarlığı, işinə sədaqəti ilə seçilən və sevilən digər peşə sahibləri də var. Mühafizənin rəis müavini Paşa dayı, fotoqraf Salam dayı, mədəniyyət klubunun müdiri Bayram müəllim, futbol komandamızın məşqçisi Cavid müəllim və əlbəttə ki, mətbuat və informasiya şöbəsinin müdiri, dosent Pərvanə İbrahimova da onların sırasındadır. Pərvanə xanımı bütün tədbirlərdə görmək mümkündür. İstər Paris olsun, Vyana, istərsə də Bakı, Pərvanə xanım bu tədbirlərdə hər şeydən uca tutduğu sözü ilə BDU-nun uğurlarından bəhs edir, onun təəssübünü çəkməyi bacarır. Universitetimizlə bağlı bütün xəbərləri istənilən vaxt Pərvanə İbrahimovadan almaq mümkündür.

Təhsil aldığım beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı, professor Zeynal Həsənalıyevə və dəyərli müəllimim, dekan müavini İkram müəllimə də mənə göstərdikləri dəstəyə görə təşəkkürümü bildirirəm. Zənnimcə, fakültəmizin sürətli inkişaf yolunda olmasının başlıca amili, ölkənin və ölkə xaricindəki təmsilçilərimizin əksəriyyətinin məhz beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu olmasıdır.



2019-cu ildə Bakı Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının da həyatında yeniliklər oldu. Dostum Nicat İsmayılov təşkilatın sədri seçildi. Qardaş təşkilatla sıx əlaqələr sayəsində tələbələr artıq seçim arasında qalmır, hər iki təşkilatla iş fəaliyyətini davam etdirə bilir. Birgə təşkil edəcəyimiz layihələr və seminarlara isə həmişə işgüzarlıqla yanaşan Nicat müəllimə təşəkkür edirəm.

Onu da demək istəyirəm ki, 1 ildən çox çalışdığım Tələbə Həmkarlar İttifaqı Komitəsi mənə çox doğma, əziz oldu. 2019-cu ilin birinci yarısında bizə dəstək olan, köməklik göstərən Dasqın müəllimə, bütün uğurlarıma görə borclu olduğum Manaf müəllimə və THİK sədr müavini seçilməyimdə mənə etibar edən, dəstək verən, hər zaman yanımda olan Tələbə Həmkarlar İttifaqı Komitəsi ailəsinə dərin təşəkkürümü bildirirəm. Sözümün sonunda 2020-ci ilin ölkəmizə və universitetimizə düşərli olmasını arzu edir və Bakı Dövlət Universitetinin tələbəsi, həm də əməkdaşı olduğumdan qürur duyuram!

**Nurel KƏRİM,**
**BDU-nun Beynəlxalq Münasibətlər və İqtisadiyyat fakültəsinin II kurs tələbəsi.**

Respublika.- 2020.- 29 yanvar.- S.4.